# Prezident İlham Əliyevin Sərəncamı ilə təltif olunmaq böyük şərəfdir

**Məlum olduğu kimi, ölkə başçısı İlham Əliyev Milli Mətbuatımızın 140 illik yubileyi ilə əlaqədar bir qrup mətbuat nümayəndələrini fəxri adlarla təltif edib. Sözsüz ki, bu ada layiq görülən hər bir media işçisinin sevinci böyükdür. Azadinform olaraq təltif edilən bəzi media nümayəndələrinin bununla bağlı keçirdiyi hissləri və fikirlərini öyrəndik.**



**"Kaspi" qəzetinin müxbiri Təranə Məhərrəmova** deyir ki, jurnalist olmaq, insanları tanımaq, milli jurnalistikamıza xidmət etmək nə qədər şərəflidirsə bu sahədə jurnalistin əməyinin dövlət tərəfindən qiymətləndirilməsi də o qədər gözəl hissdir: "Jurnalist peşəsini özünə sənəd seçənlər və özünü bu sahəyə həsr edənlər bir gün o sevinci hiss edirlər. Amma gərək bu sahədə obyektivliyini itirməyəsən. Qərəzli olmayasan. Jurnalistikanın qızıl qanunlarını tapdamayasan. Həmişə fakta söykənəsən. "Kaspi" qəzetində çalışdığım 17 il müddətində mən bu qaydaları pozmadım və bundan sonra da riayət edəcəyəm. Mənim əməyimi qiymətləndirdiyinə görə ölkə başçısına və "Kaspi"nin rəhbərliyinə minnətdarlığımı bildirirəm".



**Gün.Az saytının müxbiri Kamil Həmzəoğlu** 27 illik zəhməti, əməyini qiymətləndirən dövlətinə və ölkə Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlığını və təşəkkürlərini bildirir: "İnanın ki, çox sevincliyəm, çox xoşbəxtəm. Əgər insanın əməyi, zəhməti yerdə qalmırsa və qiymətləndirilirsə, bundan böyük sevinc, xoşbəxtlik nə ola bilər ki?! Ona görə bu anlarımı, hisslərimi ifadə etməkdə çətinlik çəkirəm, söz tapmıram deməyə... Bir daha minnətdarlığımı və təşəkkürlərimi bildirirəm!"

**Report İnformasiya Agentliyinin redaktoru İmdad Əlizadə** mükafatlandırıldığına görə çox sevinclidir: "Milli Mətbuatın 140 illik yubileyi münasibətilə məni "Tərəqqi" medalı ilə təltif etdiyinə görə, cənab Prezident İlham Əliyevə dərin təşəkkürümü bildirirəm. Bu mənim üçün çox böyük mükafatdır. Jurnalist kimi fəaliyyətim dövründə bu ada layiq olmağa çalışacağam. Hesab edirəm ki, təltif olunmaq bir insanın əməyinə verilən qiymətdir, dəyərdir. Mənim əməyimin belə qiymətləndirilməsi mənə əlavə stimul verir.

Azərbaycanda jurnalistlərə, jurnalistikaya yüksək qiymət verilməsi ənənə halını alıb. Cənab Prezident İlham Əliyevin jurnalistlərin, jurnalistikanın sosial-iqtisadi, maliyyə-texniki, yaradıcılıq problemlərinin həllini daim diqqət mərkəzində saxlaması, KİV-lərə Dəstək



Fondunun yaradılması, qəzetlərə maliyyə yardımının ayrılması, jurnalistlər üçün bir binanın tikilib istifadəyə verilməsi, yeni bir binanın inşasının davam etməsi, yubiley illərində jurnalistlərin təltif olunması, səhhətində problemlər olan jurnalistlərin müalicəsinin dövlət hesabına aparılması və s. buna bariz nümunədir. Cənab Prezident İlham Əliyevə, onun rəhbərliyi ilə həyata keçirilən bu siyasətdə əməyi olan hər kəsə təşəkkür edirəm.

Mükafat almaq gözəl hissdir. İki gündür dostlar, qohumlar yazır, zəng edir xoş sözlər deyirlər, sevinclərini bölüşürlər, illərdir üzünü görmədiyim, səsini eşitmədiyim insanlar yada salırlar. Hamıya təşəkkür edirəm".




**"Palitra" qəzetinin müxbiri Fuad Hüseynzadə** qeyd edib ki, əlbəttə ki, Prezident İlham Əliyev tərəfindən verilən sərəncamla təltif olunmaq çox böyük sevincdir: "Sanki illərlə damla-damla yığılan sevinc hissini yaşayırsan. Sevinirəm ki, bu vaxta kimi jurnalistika fəaliyyətimdə ən yüksək mükafata layiq görülmüşəm. Cənab Prezidentə buna görə təşəkkür edirəm. Bu təltif dövlət başçısının əməyimə verdiyi əvəzedilməz qiymətdir. Bu, həmçinin dövlət başçısı tərəfindən mənə göstərilən etimaddır. Cənab Prezidentin bu etimadını doğrultmağa çalışacağam".



**Mövqe.az saytının müxbiri Zülfiyyə Quliyeva** bildirib ki, ölkə başçısının bu sərəncamında adımı görəndə hansı hissi keçirdiyimi söz adamı olsam belə ifadə etməkdə çətinlik çəkirəm: "Tədbirdən yenicə gəlib evə çatmışdım ki, telefonuma təbrik zəngləri gəlməyə başladı. Cənab Prezidentin biz jurnalistləri məhz peşə bayramı ərəfəsi təltif etməsi şəxsən mənim bayramıma bayram qatdı. Məni "Tərəqqi" medalı ilə təltif etdiyinə görə, cənab Prezident İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm. Cənab Prezidentin sərəncamı ilə KİV əməkdaşlarının təltif olunması bir daha ölkə başçısının mediaya diqqətindən, qayğısından xəbər verdi. Mətbuata dövlət qayğısı, jurnalistlərə bu cür diqqətin məhz Prezidentimiz tərəfindən göstərilməsi doğrudan da bizləri sevindirdi. Mən ölkə başçısının sərəncamı ilə təltif olunan bütün həmkarlarımı təbrik edirəm. Mənim namizədliyimi irəli sürdüklərinə görə, çalışdığım "Mövqe" qəzetinin və Movqe.az saytının rəhbərliyinə də minnətdaram. Jurnalistika mənim sevərək çalışdığım və özümə məslək seçdiyim əbədi işimdir. Daim operativlik, çeviklik tələb edən bu peşədə şərəflə çalışmaq, dövlətçilik və milli maraqları, vətəndaş mövqeyimi heç vaxt unutmamaq əsas prinsipim olub. Cənab Prezidentin bu mükafatı isə mənim üzərimdə daha böyük bir məsuliyyət qoydu. Ölkə başçısına minnətdaram! Cənab Prezidentin sərəncamı ilə təltif olunan həmkarlarıma isə uğurlar, nailiyyətlər arzulayıram".



**Azvision.az saytının baş redaktoru Vüsal Məmmədov** isə deyir ki, insanın, böyük çıxmasın, zəhmətinə qiymət verilməsi həmişə xoş və gözəldir: "Amma burada əsas məsələ odur ki, dövlətin mediaya bu cür yanaşması jurnalistikanın əvvəlki hörmətini özünə qaytarır. Ən çox buna sevinirəm. Mən jurnalistikanın hörmətdən düşdüyü dövrün acısını yaşayan nəslin nümayəndəsiyəm. Amma son illərdə jurnalistliyin yenidən nüfuzlu və sanballı peşəyə çevrildiyini gördüyüm üçün xoşbəxtəm. İlk növbədə buna, sonra isə əlbəttə ki, mənim özümə verilən dəyərə görə dövlətimizə və onun başçısına minnətdaram".



**Demokratik Jurnalistlər Liqasının rəhbəri, jurnalist Yadigar Məmmədi** vurğulayıb ki, cənab Prezidentin Milli Mətbuatımızın 140 illik yubileyi münasibətilə bir qrup jurnalistin mükafatlandırılması ilə bağlı Sərəncamı dərc olunduğu andan əksər jurnalistlərin diqqət mərkəzindədir və demək olar ki, dünəndən gündəmi zəbt edib: "Bu da ona görədir ki, jurnalistlər arasında həmrəylik yüksək səviyyədədir. Uzun illər media sahəsində fədakarlıqla fəaliyyət göstərən jurnalistləri mükafatlandırdığına görə cənab Prezidentə təşəkkür edirəm. Bu dövlətin və dövlət başçısının mediaya göstərdiyi diqqət və qayğının bariz nümunəsidir".



**Lider televiziyasının jurnalisti Mehman Mehdiyev** deyir ki, bu, gözəl hissdir: "Dünəndən həyəcanlıyam, səhərə qədər dostlardan, yaxınlardan təbriklər alıram. Mənimlə sevinən insanlara təşəkkürümü bildirirəm. Əslində, dostlar gözəl günlərdə tanınır... Bu yola çıxmazdan əvvəl mükafatı düşünmədim. Sadəcə sevdim jurnalistikanı və zəhmət çəkdim. Yorulmadan bu gün də sevə-sevə bu işi davam etdirəcəyəm, İnşaallah. Nəticədə əməyinə qiymət veriləndə sadəcə sevinirsən və deyirsən əməyim hədər getmədi! Bu ada - "Əməkdar jurnalist" fəxri adına layiq görüldüyüm üçün cənab Prezident İlham Əliyevə ailəmiz adından təşəkkürümü bildirirəm".

⇨ Davamı 25-ci səhifədə

# Prezident İlham Əliyevin Sərəncamı ilə təltif olunmaq böyük şərəfdir



⇨ Əvvəli 24-cü səhifədə

**“İki sahil” qəzetinin siyasət bölməsinin müdiri, Əməkdar jurnalist Xuraman Məmmədova:**

-Milli mətbuatımızın yubileyləri həmkarlarım kimi mənim üçün də əlamətdar, yaddaqalan hadisədir. Bu sevinci bizə yaşadan, mətbuata diqqət və qayğısı ilə həqiqi mənada “Jurnalistlərin dostu” olduğunu “Mən dostluqda sadiq adamam və hesab edirəm ki, bizim dostluğumuz bundan sonra da uğurla davam edəcəkdir” sözləri ilə təsdiqləyən Prezident İlham Əliyevə minnətdarlığımı bildirirəm.

140 illik milli mətbuat tariximizin 48 ilində azacıq da olsa payım və xidmətlərim olduğu üçün sevinirəm.

... Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsində oxuyarkən o zaman dekanımız olan rəhmətlik Nurəddin Babayevin bir sözünü heç vaxt unutmuram: “Jurnalistin narahatçılığı yazacağı yazının mövzusunu fikirləşdiyi andan başlanır.” Müsbət mənada başa düşülən bu “narahatçılıq” jurnalistin ömür yolunda onunla qoşa addımlayır, istiqamətləndirir, bəzən sevincli, yeri gələndə kədərli anlar yaşadır... püxtələşdirir, həyat təcrübəsini artırır.

Naxçıvanda nəşr olunan “Şərq qapısı” qəzetinin şöbə müdiri kimi çalışdığım illəri xoş xatirə kimi daim xatırlayıram. Xüsusilə 1992-1993-cü illərdə muxtar respublikada baş verən hadisələr, o dövrdə Naxçıvan MR Ali Məclisinin Sədri vəzifəsində çalışan ulu öndər Heydər Əliyevin iştirak etdiyi tədbirlərlə bağlı hazırladığım yazılar mənim üçün həyat məktəbi idi. Ermləni silahlılarının muxtar respublikanın sərhəd kəndlərinə hücumları zamanı Qadınlar Cəmiyyətinin xətti ilə cəbhədə döyüşən əsgərlərlə görüşlərimiz, şəhidlərlə bağlı yazı hazırlayarkən keçirdiyimiz anların hər biri xatirə kimi yaddaşımızda yaşayır.

Bu gün çalışdığım “İki sahil” qəzetinin həyatımda başqa önəmi, yeri vardır. Bu qəzetdə, belə səmimi kollektivdə çalışdığım illər mənim üçün daha geniş mənada təcrübə məktəbi oldu. Aldığım mükafatı bütün kollektivin əməyinə verilən dəyər hesab edirəm.

Arxada qalan illərə nəzər yetirdikdə belə bir həqiqəti etiraf etməliyəm ki, Azərbaycan jurnalistikasının inkişaf dövrü son illərə təsadüf edir. Bu illərdə müstəqil mətbuatın inkişafı üçün göstərilən diqqət və qayğını daha çox hiss edirik. Jurnalistlərin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına yönələn diqqət, qələm sahibləri üçün inşa olunan yaşayış evləri, qəzet və jurnalların çap mədəniyyətinin müasir dövrün tələblərinə uyğunlaşdırılması, ən müasir texnologiyaların tətbiqi, xüsusilə gənclərdə bu peşəyə marağı artırır. Biz yaşlı nəsil çox sevinirik ki, gənclər arasında milli mətbuatımızın banisi Həsən bəy Zərdabinin irsinə sadiq qalan “Əkinci”ni yaşadacaq ardıcılları bu şərəfli peşənin məsuliyyətini aydın başa düşürlər.

Sevinirəm ki, milli mətbuatımızın 140 illik yubileyi günlərində əməyi Prezident İlham Əliyev tərəfindən dəyərləndirilənlərdən biri də mənəm. Bunun üçün bir daha dövlətimizin başçısına minnətdarlığımı bildirir və həmkarlarımı peşə bayramları münasibətilə təbrik edirəm.



**“İki sahil” qəzetinin baş redaktorunun texniki məsələlər üzrə müavini Rəşad Bağırov:**

-Bu gün mətbuatımıza diqqət və qayğı ulu öndər Heydər Əliyevin bu sahədə gördüyü işlərin davamıdır. Söz, mətbuat azadlığı daim ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi siyasətin önündə dayanıb. 1993-cü ildə Ulu Öndərin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra bu sahədə də mövcud problemlərin həllinə geniş imkanlar açıldı, yeni mərhələnin əsası qoyuldu. Məhz o illərdə həyata keçirilmiş çoxşaxəli islahatların nəticəsi olaraq bu gün Azərbaycanda söz və mətbuat azadlığı sahəsindəki mövcud vəziyyət qabaqcıl demokratik ölkələrlə müqayisə edilə bilər. Ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin müstəqil mətbuatın inkişafı istiqamətində atdığı addımlar daim ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanmış və bu gün də hər bir Azərbaycan vətəndaşında, bu sənətin daşıyıcılarında böyük qürur hissi yaradır. Cənab İlham Əliyevin son illər söz, mətbuat azadlığı sahəsində göstərdiyi fəaliyyət təkcə ölkəmizdə deyil, beynəlxalq təşkilatlar tərəfindən də yüksək dəyərləndirilir. İmzaladığı sərəncamlara əsasən, kütləvi informasiya vasitələrinin inkişafına Dövlət Dəstəyi Konsepsiyasının təsdiqlənməsi, bu sənədə uyğun olaraq Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması, milli mətbuatımızın yubileyləri ərəfəsində jurnalistlərin fəxri adlarla və “Tərəqqi” medalı ilə təltif edilməsi möhtərəm Prezidentimizin bu sahəyə diqqətinin bariz nümunələrindəndir.

Milli mətbuatımızın 140 illik yubileyində qəzetimizin iki əməkdaşının da təltif olunanlar sırasında olmasını ümumilikdə qəzetimizin, kollektivimizin əməyinə verilən dəyər kimi qəbul edirik. Dövlətimizin başçısı İlham Əliyevin Sərəncamı ilə “Tərəqqi” medalına layiq görülənlərdən biri kimi bu etimadı yüksək səviyyədə doğrultmağa çalışacaq, üzərimə düşən vəzifəni bundan sonra da layiqincə yerinə yetirmək üçün səylərimi daha da artıracağam. Bu fikri böyük fəxr hissi ilə qeyd edirəm ki, bu gün harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı belə güclü, qüdrətli ölkənin vətəndaşı olmaqdan qürur duyur, atdığı hər addımında vətəndaş amilinə yüksək dəyər verdiyini təsdiqləyən cənab İlham Əliyevin ətrafında sıx birləşərək gələcəyə böyük inamla baxır. Ötən hər günü tarixinə mühüm hadisələrlə yazan Azərbaycanımızı daha möhtəşəm uğurlar gözləyir. Bu uğurların təbliğatçısı olmaqdan qürur duyuram.



**İctimai Televiziyanın İnformasiya və ictimai-siyasi proqramlar departamentinin direktor müavini Anar Yusifoğlu:**

“Mən xeyli zamandır bu sahədə çalışıram, jurnalistikanı da, dövlətimi də sevirəm. Bu fəaliyyətimə ölkənin birinci şəxsi səviyyəsində qiymət verilməsi, şübhəsiz ki, hər bir vətəndaş kimi mənim üçün də qürur, eyni zamanda böyük məsuliyyətdir. Bundan sonra da Azərbaycan mediasının inkişafı və dövlətçilik maraqlarımızın qorunması üçün üzərimə düşən vəzifəni yerinə yetirməyə çalışacağam”.

O qeyd edib ki, Prezident İlham Əliyevin Sərəncamı ilə bu il mətbuatın yubileyi geniş kampaniya ilə keçirilir, müstəqil mətbuatın güclənməsi üçün dövlət dəstəyi ilbəil artır, əsl mətbuatın formalaşmasına şərait yaranır, jurnalistlərin sosial problemləri dövlətin diqqət mərkəzindədir: “Bu, Prezidentin sözə, mediaya, jurnalistikaya verdiyi dəyərdi. Prezidentin Sərəncamı ilə təltif olunmaq çox xoşdur, qiymətlidir, qürurvericidir. Dəyərləndirildiyini hiss etməkdən gözəl duyğu yoxdur. Buna görə, cənab Prezidentə, namizədliyimi təqdim edən və dəstəkləyən hər kəsə minnətdaram. Təltif olunan həmkarlarımı da təbrik edir, uğurlar arzulayıram. Digər layiqli, peşəkar həmkarlarıma da bu sevinci yaşamağı arzu edirəm”.

A.Yusifoğlu bildirib ki, azad söz, fikir və mətbuat azadlığının təmin edilməsi, kütləvi informasiya vasitələrinin fəaliyyəti və inkişafı üçün münbit şəraitin yaradılması demokratiyanın əsas meyarlarından biridir: “Bu mənada Azərbaycanda demokratikləşmə istiqamətində həyata keçirilən dövlət siyasətinin mühüm tərkib hissəsi kimi mətbuat azadlığı, eləcə də mətbuatın inkişafı üçün bir sıra zəruri addımlar atılır. Prezident İlham Əliyevin milli mətbuatın 140 illiyi ilə bağlı imzaladığı Sərəncam sözügedən addımlardan sayıla bilər. Qeyd edək ki, bu gün dünyanın heç bir yerində dövlət mətbuata birbaşa yardım etmir və hansısa qəzetin mətbəəyə olan borcunu ödəmir. Bu mənada Azərbaycan hakimiyyəti bir sıra qəzetlərin yaranmış borcunu ödəmək, media təmsilçilərini fəxri adlar və müxtəlif mükafatlara layiq görməklə həm də mətbuat tarixində yeniliyə imza atır. Ölkə rəhbərliyinin mətbuatın dövlət və cəmiyyət həyatındakı roluna mühüm önəm verməklə onun müstəqilləşməsi, habelə mövcud problemlərinin həlli istiqamətində davamlı addımlar atması təsadüfi sayıla bilməz. Respublikamızın dünya informasiya məkanına daxil olması və informasiyalı cəmiyyətə keçid şəxsiyyətin, cəmiyyətin və dövlətin informasiyaya olan tələbatının daha dolğun ödənilməsinə, kütləvi informasiya vasitələrinin fəaliyyətinin təkmilləşməsinə və müasir dövrün tələblərinə uyğunlaşmasına ehtiyac yaradır. Dövrün tələblərinə uyğun olaraq bu ehtiyacı hiss edən ölkə rəhbərliyi kütləvi informasiya vasitələri ilə dövlət qurumları arasında səmərəli əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsi, kütləvi informasiya vasitələrinin iqtisadi müstəqilliyi və jurnalistlərin peşəkarlığının artırılması, vətəndaş cəmiyyəti quruculuğu prosesində onların rolunun gücləndirilməsi məqsədilə mühüm tədbirlər həyata keçirir”.

A.Yusifoğlunun sözlərinə görə, bu gün ölkədə söz və mətbuat azadlığı üçün heç bir maneə və təhlükə yoxdur, jurnalistlər istədikləri mövzunu açıq şəkildə cəmiyyətin diqqətinə çatdıra bilirlər: “Mətbuatın inkişafına göstərilən bu yüksək diqqət və qayğı müqabilində ölkə rəhbərliyinin mətbuatla bağlı gözləntiləri də var. Prezident İlham Əliyevin milli mətbuatın 140 illik yubileyinin keçirilməsi haqqında Sərəncamında da bildirilir ki, qlobal informasiya məkanının gündən-günə genişləndiyi, beynəlxalq təbliğat fəaliyyətinin ayrı-ayrı ölkələrin imicinə, daxili həyatına ciddi təsir göstərdiyi müasir dövrdə kütləvi informasiya vasitələrimiz daha peşəkar, obyektiv və prinsipial olmalı, yüksək milli şüur və vətənpərvərlik nümayiş etdirərək Azərbaycanın dövlətçilik maraqlarını hər şeydən uca tutmalıdırlar. Mətbuat ölkəmizdə müasir cəmiyyət quruculuğu, milli həmrəyliyin və tolerantlığın möhkəmləndirilməsi, siyasi mədəniyyətin inkişaf etdirilməsi, mənəvi-əxlaqi dəyərlərin qorunub saxlanması və təbliğində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməlidir. Beləliklə, mətbuatdan yalnız qanunlara, peşə etikasına hörmət, milli mənəvi dəyərlərə sədaqət, dövlət və xalq maraqlarına təəssübkeş, vətənpərvər münasibət istənilir. Bunlar da sırf peşəkarlıqla bağlı məsələlərdir. Son illər cəmiyyət həyatının bütün sahələrində əsaslı keyfiyyət dəyişiklikləri hiss olunur, bir çox məsələlər məhz ictimai qınaq və məzəmmət yolu ilə aradan qalxır. Mətbuatda milli mənəvi dəyərlərə, dövlətçilik maraqlarına hörmət prinsipi bütün konyuktur maraqlardan öndə dayanmalıdır. Əslində, bunu müharibə şəraitində yaşayan, ərazisinin 20 faizi hələ də işğal altında olan bir dövlətdə xalqın milli maraqları tələb edir. Odur ki, yeni dövrdə ölkə mediasının da üzərinə mühüm vəzifələr düşür. İlk növbədə, mətbuatda peşəkarlıq əsas normalardan birinə çevrilməli, KİV-də milli maraqların qorunması hər bir jurnalist üçün vacib mənəvi məsələ olmalıdır. Yeni mərhələnin siyasi reallıqları mətbuatın cəmiyyətdə təkcə rolunu deyil, həm də sosial öhdəliklərini, məsuliyyətini artırır. Bu gün ictimaiyyət ölkənin taleyüklü məsələlərinə münasibətdə mətbuat nümayəndələrindən əsl vətəndaş mövqeyi, milli təəssübkeşlik nümunəsi tələb edir. Buna görə də peşə etikası ilə yanaşı, milli təəssübkeşik, taleyüklü problemlərə vətəndaş yanaşması Azərbaycan mediasının keyfiyyət göstəricisi olmalıdır”.